# Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

**DİZAYNIN ƏSASLARI - 1” fənni üzrə**

**İŞÇİ TƏDRIS PROQRAMI**

**(Sillabus)**

**<u>Tələb olunan dərsliklər və dərs vəsaitləri</u>**

**Əsas ədəbiyyat:**

1. Н.Райли «Элементы дизайна. Развитие дизайна и элементов стиля от ренессанса до постмодернизма» М.: Магма,2004
2. Y.Hacıyeva, R.Həsənov «Dizaynın əsasları» , B.,2005
3. Рунге Ф. История дизайна науки и техники. Москва: Архитектура-С, 2006.
4. Ю.С.Старикова «Основы дизайна. Конспект лекций » М.: А-Приор,2011

**Əlavə ədəbiyyat:**

1. С.Михайлов, А.Кулеев «Основы дизайна» Казань, 1995
2. S. S. Dünyamalıyeva. " Azərbaycan Geyim mədəniyyəti tarixi ", Bakı, "Elm", 2002
3. В.Ф.Рунге, В.В.Сеньковский «Основы теории и методологии дизайна» М.: М.З.-Пресс, 2003

Hər bir mövzu üzrə müəllimin mühazirə mətnləri və təqimatlan elektron-kabinetə yerləşdirilir. Hər bir mövzu ilə bağlı müəllim əlavə olaraq xüsusi ədəbiyyat təklif edə bilər.

**<u>Fənnin təsviri</u>**

Bu fənn, ümumi (əsas) fənnlər siyahısına daxil olmaqla, bakalavr pilləsində təhsil alan tələbələrə insanın bədii fəaliyyətinin dizayn kimi bir sahəsinin mövcud olması və yaranma şəraitinin, əsrlər boyu inkişafını ətraflı öyrənilməsi nəzərdə tutulmuşdur. Fənnin bu cür öyrənilməsi tələbələrə öz bədii zövqlərini inkişaf etdirməyə və öz yaradıcılıqları ilə digərlərində estetik zövq tərbiyə etməyə kömək edəcək.

Fənndə tələbələrə dizaynın yaranmasının xronoloji sərhədləri, funksiyaları, Renessans dövründən başlayaraq postmodernizma qədər olan inkişaf yolu ilə tanışlığı nəzərdə tutulur. "Dizaynın əsasları" fənninin yeniliyi budur ki, onun əsas ideyası – tələbələrdə təfəkkürün xüsusi üslubunu (dizayner təfəkkürünü) formalaşdırmaqdan ibarətdir. Bunun üçün isə harmonik əşyaların əsas meyarlarını anlamaq, üslub hissi, əşyalar aləminə estetik münasibət xarakterikdir. Tələbələrin bədii fəaliyyətinin nəticələrinin istifadəsi mühüm tərbiyəvi əhəmiyyət daşıyır. Dizaynın əsaslarının mənimsənilməsi həqiqətin qavranılmasında effektli vasitə kimi çıxış edir, vizual qavrayışın, assosiativ baxışın, təxəyyül və məkani təsəvvürlərin formalaşması və inkişafına kömək edir.

**<u>Fənnin məqsədi və vəzifələri</u>**

Kursun tədrisində məqsəd dünyəvi bədii proseslərin təkamülü sahəsində əsas biliklərə yiyələnmək, onların mahiyyəti və müxtəlifliyini anlamaq, öz yaradıcılığını düzgün təşkil etmək və ümumi bədii mədəniyyət kontekstində onun yerini anlamaq üçün dünya incəsənəti əsərlərinə baxmaq, anlamaq və onları peşəkarcasına təhlil etmək bacarıqlarını əldə etməkdir. Burada əsas məqsəd nəinki bəşəriyyətin mühüm kəşfləri və ixtiralarının tarixi, həmçinin dünyanın nəhəng ölkələrində sənaye istehsalı məhsullarının bədii forma təşkili tarixi sahəsində də biliklərin əldə edilməsidir.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- dünyada baş vermiş və bu gün də baş verməkdə davam edən bədii proseslərin və hadisələrin təkamülünün tarixi qanunauyğunluqları və onların müxtəlif ölkələrdə baş verən ictimai-iqtisadi və siyasi hadisələrlə qarşılıqlı əlaqəsini bilmək;
- tələbələrin qrafik biliyini artırmaq, onlarda texniki təfəkkürün və məkani təsəvvürlərin, yaradıcılıq təxəyyülünün, estetik qavramanın və zövqün, bədii-konstruktiv xüsusiyyətlərin formalaşmasına kömək etmək;

- üslublar, istiqamətlər, məktəblər, onları təmsil edən dizaynerlərin adları, onlar tərəfindən yaradılmış əsas əsərləri tanıtmaq;
- dizayn problemlərinin yaranması və müəyyən edilməsini, cəmiyyətin müxtəlif tarixi inkişaf mərhələlərində dizaynın formalaşmasını anlamaq.

**Fənnin tədris metodologiyası**

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, xüsusi nümunələrin öyrənilməsi və təhlili, sərbəst işlərin layihə şəkilində hazırlanması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

**Öyrənmənin nəticələri:**

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- dizaynın yaranması və inkişafı haqqında nəzəriyyələri;
- bədii yaradıcılığın dizaynın formalaşmasına təsiri;
- maşın texnikasının yaranmasına təkan verən amillər, icadlar;
- sənaye dizaynın yaranması və inkişafı;
- elmi-texniki yeniliklər və icadlar;
- Renessans dövründən bu günə kimi dizayn sahələrində formalaşmış bədii üslubların xüsusiyyətlərini;
- ilk dizayn məktəblərin yaranması və fəaliyyətləri;
- postsənaye dizaynının müasir həyatla bağlılığı.

**Bacarmalıdırlar**:

- dizayn nəzəriyyələrində olan müxtəlif yanaşmaları fərqləndirməyi;
- dizayn sahələrində formalaşmış üslublar, istiqamətlər, məktəblər, onları təmsil edən dizaynerlərin adları, onlar tərəfindən yaradılmış əsərləri fərqləndirməyi;
- dizaynın növlərini və onların xüsusiyyətlərini müəllif dəsti-xəttininə görə fərqləndirməyi bacarmalı;
- əsərin məzmunu və ideyasını peşəkarcasına “oxumalı” və rəy bildirməyi bacarmalı.

**Prerekvizitlər**

Yoxdur

**Fənnin mühazirə mövzuları**

Fənnin tədrisi prosesində tələbələrə aşağıdakı mövzularda mühazirələr təqdim ediləcək:

1. Dizaynın xarakteristikası və onu təşkil edən dekorativ üslubların xüsusiyyətləri
2. Dizaynın təşəkkülü. Renesans dövrü və dizaynın Barokko dövrünün inkişafı
3. Dizayn Rokoko dövrün astanasında və dizaynda neoklassisizm üslubun yaranması
4. X1X əsrdə dizaynın inkişafı və Art- Nuvo üslubun özəlliyi
5. Dizaynda modernizm və Art -Deko üslubunun yaranması və formalaşması
6. Dizayn 1960-cı illərin astanasında və postmodernizm üslubun inkişafı
7. İlk dizayn məktəblərinin təşkili və məhşur dizaynerlərin həyat və yaradıcılığı
8. Dizaynın milli fenomen kimi təzahürü

**Fənnin mühazirə mətnləri**

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri və sualları elektron formada hazırlanıb və UNEC-in müəllim kabinetində yerləşdirilib. Fənn üzrə suallar bu mətnlərdən tərtib edilib.

**Mövzuların məzmunu və tədris-tematik bölgüsü**

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | **Dizaynın xarakteristikası və onu təşkil edən dekorativ üslubların xüsusiyyətləri** | Dizayn bir anlayış və termin kimi. Dizayn haqqında yaradıcı insanların fəqli düşüncələri.Dizayn-insan fəaliyyəti kimi.Dizaynın funksiyaları.Dizaynın yaranmasının xronoloji sərhədləri: ibtidai dizayn və bədii sənaye dizaynı. Üslub anlayışı. Eklektika – üslubun təbii və qanunauyğun inkişaf prosesi kimi. Üslubun əsas növləri: tarixi, etnik və müasir. Coğrafi üslub – etnika. Etno-üslub: yapon, afrika və skandinaviya. Geyim dizaynında formalaşmış müasir üslublar. | **1 (fəsil 3); 2 (fəsil 1,3,2); 3 (fəsil 1, 9);** |
| 2 | **Dizaynın təşəkkülü. Renesans dövrü və dizaynın Barokko dövrünün inkişafı** | Renessans dövrü dizaynının əsas xüsusiyyətləri. İnteryer, mebel, keramika, şüşə və metal əşyaların dekorlaşdırılmasında istifadə edilən ornamental motivlər. Zərgərlik məmulatlarının klassik ornamentləri. Renessans dövrünün dəbi və parçaları. Barokko üslubunun əsas xüsusiyyətləri. Dekorativ incəsənətin xüsusiyyətləri. Barokko mebelinin yaradılmasında istifadə edilən heykəltəraşlıq formalarının müxtəlifliyi. Parçalar üzərində barokko üslubunda naxışlar. Şirli keramika, süni çini və qırmızı keramika. Şüşə dekorunda istifadə edilən mürəkkəb naxışlar və ciddi formalar. Metal məmulatların hazırlanması zamanı istifadə edilən | **1 (**fəsil 1,2,3 və 9); **2** (fəsil 1,3,4); **3** (fəsil 2 və 10) |

| | | | |
|---|---|---|---|
| | | üslubların növləri. Bu dövrə aid rəngarəng və görkəmli kişi və qadın geyimlərinin müxtəlifliyi. | |
| 3 | **Dizayn Rokoko dövrün astanasında və dizaynda neoklassisizm üslubun yaranması** | Rokoko üslubunun əsas xüsusiyyətləri. Bu dövrə aid mebellərin qövslü və dalğavari formaları üzərində təbiət əşyalarının təsviri. Rokoko üslubuna aid keramika məmulatları üçün xarakterik olan çini və dulusçuluq məmulatlarının üzərinə çap qravürlərin köçürülməsi texnikası. Şüşənin emaye və qızıl ilə rokoko ruhunda bəzədilməsi. Rokoko həkkaklığının xüsusiyyətləri – buruqların və lentlərin bolluğu. Heraldik rəmzlərin həkkaklığı, qızıl və gümüş üzərində ştamplama rokoko üslubunun çiçəklənmə sahəsi kimi. Rokoko dəbi zadəganların tipik dəbi kimi. Neoklassisizmin əsas xüsusiyyətləri. Neoklassisizm üslubuna aid mebellərdə yunan və roma motivləri. Bu üsluba aid keramikanı bəzəyən naxışların simmetrikliyi, zəngin moldinqlər və maili üç ölçülü detallar. Şüşənin forması və ornament. Həkk etmə zamanı istifadə edilən naxışların, gerblərin və yazıların motivləri. Metaldan hazırlanmış məmulatlar. Dekorativ əşyaların, mebel üçün yapışdırmaların və keramika üçün sağanaqların hazırlanmasında istifadə edilən qızıllama. Qotik və memari motivlər parçalar üzərindəki neoklassik naxışların əsası kimi.Tikiş maşınının icad edilməsi, biçim və onun yeni prinsipləri haqqında kitabların yayılması sayəsində qadın və kişi geyimlərinin biçiminin mürəkkəbləş-dirilməsi. | **1** (fəsil 4,5,7 və 10);<br>**2** (fəsil 4,5,7,9);<br>**3** (fəsil 6); |
| 4 | **X1X əsrdə dizaynın inkişafı və Art- Nuvo üslubun özəlliyi** | XIX əsrdə dizaynın inkişafının əsas qanunauyğunluqları. XIX əsrin dizaynı üçün xarakterik olan mühafizəkarlıq. Mebelin konturlarında qotik dekor, sərkərdə və qəhrəmanlıq motivləri. Rokoko üslubunun qotik və klassik motivləri tekstil sahəsində. “İncəsənət və sənətkarlıq” hərəkatının xüsusiyyətləri. Dəbi zəngin burjuaziyanın zövqləri kimi diktə edən XIX əsrin ikinci | **1 (**fəsil 7,8);<br>**2** (fəsil 8,10);<br>**3** (fəsil 3); |

| | | | |
|---|---|---|---|
| | | yarısı. Funksional cəhətdən geyimin ciddi bölgüsü kişi kostyumu sahəsində əsas yenilik kimi. Krinolin qadın kostyumunun ən diqqət çəkici xüsusiyyəti kimi.<br>Art Nuvo üslubunun əsas xüsusiyyətləri. Art Nuvo üçün xarakterik olan dalğavari, asimmetrik, əyri xətlər. Həndəsi, abstrakt, xətti formalar bu üslubun əsas formaları kimi. Təbiət Art Nuvo üslubunun əsası kimi. Zəngin dekorativ bəzək, yüksək texnoloji ustalıq, bu üslubun mebeli üçün xarakterik olan milli nümunələrin istifadəsi. Bu dövrün yemək dəstlərini bəzəyən solğun rənglər, çiçək və heyvanların formasında hazırlanmış moldinqlər. Metal məmulatların hazırlanması zamanı təbiət motivlərinin abstrakt xətlər və naxışlarla uyğunlaşması. Geyimdə təbiətə can atmaq, nəbati elementlərin bolluğu Art Nuvo üslubunun tərkibi kimi. | |
| **5** | **Dizaynda modernizm və Art-Deko üslubunun yaranması və formalaşması** | Bu üslubun əsas xüsusiyyətləri. Modernizm üslubunun əvvəlki üslublardan fərqi: tarixi keçmişlə əlaqəsizlik, material üzərində vurğu və əsərin yaradılma prosesi, modern dövrünün dizaynında sənaye proseslərinin istifadəsi. Görkəmli texniki nailiyyətlərin modernizmin eklektikasına təsiri. Dəbin ümumi üslubuna tabe olmayan dekor və bəzəkdən məhrum edilmiş mebelin çoxsaylı formaları. Metaldan hazırlanmış məmulatların mükəmməl forması ilə kobudluğun eyni zamanda uyğunlaşması. Sadələşdirmək və mükəmməlləşdirmək modernizmin dəb sahəsində fəal təcəssüm edən ideyaları kimi. Qadın kostyumunu sadələşdirmək məqsədilə S-ə bənzər formalı korsetin yaradılması. Həndəsi rəsm modern üslubunun dekorunun ən geniş yayılmış elementlərindən biri kimi.<br>Art-Deko üslubunun əsas xüsusiyyətləri. Art-Deko üslubunda incəsənətin çiçəklənməsi. Avanqard rəssamlığın Art-Deko üslubuna təsiri. Mebelin funksional əhəmiyyəti. Keramika məmulatlarının həndəsi ornamentlər, çöl bitkiləri və heyvan | **1** (fəsil 6, 11,12,15);<br>**2** (fəsil 11,22,23);<br>**3** (fəsil 3,14) |

| | | | |
|---|---|---|---|
| | | təsvirləri ilə dekorlaşdırılması. Sənaye əsası kimi qoyulmuş qiymətli və rəngli metallardan hazırlanmış müxtəlif məmulatların istehsalı. Yaxın Şərq motivlərinin təsiri ilə xalçaların ənənəvi şərq üslubunda hazırlanması. Sənaye dizaynının inkişafı və plastik məmulatların meydana gəlməsi. Dəbli geyim sahəsində qədim yunan və misirlilərin zərif motivlərinin, maya və astek xalqlarının mədəniyyətinin nəfis elementlərinin kubizmin kəskin konturları və konstruktivizmin qətiliyi ilə uğurlu birləşməsi. | |
| 6 | **Dizayn 1960-cı illərin astanasında və postmodernizm üslubun inkişafı** | Müharibə sonrası dizaynın xarakteristikası. Tətbiqi dizayn. 1960-cı illərin dizaynının əsas xüsusiyyətləri. Sənaye və dəbin tərəqqisi 60-cı illərin meyarlarından biri kimi. Mebelin yeni forma və materiallarda təqdimatı. Müasirlik və ifadə azadlığını əks etdirən zövqlü, dəbli və müasir keramika. Şüşənin düzgün xətlərinin qeyri-bərabər rəng, faktura və müxtəlif növ bəzəklərlə daha yanlış, sınıq və ekssentrik formalara keçidi. Metaldan hazırlanmış məmulatların istehsalında paslanmayan polada üstünlük verilməsi. Dəb və geyim müstəqillik və müəyyən yaş qrupuna aid olmaq rəmzi kimi. İstehlak malları bazarında sənaye dizaynının gələcək yeri.<br>Postmodernizm modernist dünyanın mütləq istiqamətindən məkan və zamanın xeyrinə imtina kimi. Dizaynerlər tərəfindən rəngə, dekora və bəzəklərə maraqlı yanaşmaların kəşfi; memar və dizaynerlərə olan marağı artıran məşhur, ekzotik və nadir mədəni istinadların təklifi. Postmodernizm tərəfindən gündəlik mebel dizaynında radikal dəyişikliklərin edilməsi. Geyimdə postmodernizm. | **1** (fəsil 13 və 17);<br>**2** (fəsil 11,12,17);<br>**3** (fəsil 5); |
| 7 | **İlk dizayn məktəblərinin təşkili və məhşur dizaynerlərin həyat və yaradıcılığı** | Dünya bədii mədəniyyətində yaranan məşhur bədii memarlıq məktəbi sayılan, dizaynda müasir formayaranmanın əsaslarını yaratmış - Bauhaus məktəbi.Bauhaus məktəbinin yaranması, fəaliyyəti, əsas pedaqoji prinsipləri və məqsədi. Sovet | **1** (fəsil 16);<br>**2** (fəsil 18);<br>**3** (fəsil 13) |

| | | | |
|---|---|---|---|
| | | dizaynının məktəbi – VXUTEMAS və VXUTEİN. Məktəblərin yaranması, məqsədi, quruluşu, istiqamətləri. XIX – XXI əsrlərdə fəaliyyət göstərən dizaynerlər: Arad Ron, Bellini Mario, Berens Peter, Boççoni Umberto, Venturi Robert, Qeddz Norman Bel, Qeri Frenk, Qreyvz Maykl, Qropius Valter, Cudcarro Cordcetto, Kolani Luidci, Kolombo Coe, Lütfi Zadə Ələsgərzadə, Loui Raymond, Ma Yanusi, Makintoş Çarlz Renni, Panton Verner, Peşe Qaetano, Piano Rentso, Pulos Artus, Rodçenko Aleksandr Mixayloviç, Rossi Aldo, Sottsass Etore, Stark Filipp, Hollein Hans, Ekuan Kendzi, Earl Harli. | |
| **8** | **Dizaynın milli fenomen kimi təzahürü** | Dizaynın yeni mədəni hadisə kimi təhlil edilməsi və meydana gəlməsi. Milli dizaynın inkişaf xüsusiyyətləri. Azərbaycanın milli sənət yadigarları, milli mənəviyyatdan bəhs edən incəsənətin bütün sahələri dizaynın inkişafında tətqiqat obyekti kimi. Xalq yaradıcılığında insan fəaliyyətini və həyatını, məişətin estetik mənasını, təbiətin qanunauyğunluqlarını özündə əks etdirən ornamentlər. Azəbaycanda incəsənət sahəsində naxış tikmə üsulu. Daş və naxış işləmələr bir sənət sahəsi kimi. Xalq sənətinin ən geniş yayılmış növü – xalça sənəti. Azərbaycan milli geyimlərinnin xüsusiyyətləri. | **1 (**fəsil 14);<br>**2** (fəsil 24 - 26);<br>**3** (fəsil 16-18) |
| **Yekun imtahan** | | | |

**<u>Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə</u>**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) mövzu üzrə verilən praktik tapşırıqları yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata

keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavrların semestr ərzində topladıqları aktivlik və ara qiymətləndirmə ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal seminar dərslərində alınan ballar əsasında formalaşır.

Hər semestrin əvvəlində bakalavrlara təqdim edilən sillabuslarda hər bir fənn üzrə aktivlik balının necə formalaşması qaydası göstərilir.

Seminar dərslərində qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir.

Seminar dərslərində alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

B = (((b1+b2+b3+...+bn)/s)*m)/10

Burada,

B - yekun aktivlik balı;

b - seminar dərslərində alınan müxtəlif ballar;

s - semestr ərzində verilən cavabların sayı;

m - aktivlik balına ayrılan maksimal bal;

10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavr semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavrlara cavab verməsi üçün imkan yaradır.

Bakalavr semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən "0" bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə "0" bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

**<u>Fənn üzrə kurs işi</u>**

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

**<u>Ara qiymətləndirmə</u>**

**Ara qiymətləndirmə** - hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada yazı üsulu ilə 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə suallar təqdim edilmir. Fənlər üzrə (alt qrup fənləri də daxil olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər UNEC-in saytında elan edilir.

Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları (habelə olduğu halda texniki problem yaranmış imtahanlar) 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

**Dərsə davamiyyət**

Bakalavriat səviyyəsi üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

**Aralıq qiymətləndirmə (sessiya imtahanı)**

Aralıq qiymətləndirmə - yazılı imtahan üsulu ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən suallar əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Aralıq qiymətləndirmə üzrə üzrlü imtahanları (texniki problem yaranmış imtahanlar da daxil olmaqla) sessiya bitdikdən sonra eyni qaydada ardıcıl günlər ərzində keçirilir.

Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına, 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır;

Aralıq qiymətləndirmədə tələbə minimum 17 bal toplamazsa, onda aralıq qiymətləndirməyə qədər yığılan ballar toplanmır, tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

Aralıq qiymətləndirilmə ilə bağlı tələbənin hər-hansı şikayəti olarsa, tələbə Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya Komissiyasına müraciət edə bilər.

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır.

Aralıq qiymətləndirmədən sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

| İstiqamət | Ballar | Faiz |
|---|---|---|
| Aralıq qiymətləndirmə (sessiya imtahanı) | 50 | 50 % |
| Tələbələrin ara qiymətləndirmənin nəticəsinə görə | 30 | 30 % |

| | | |
|---|---|---|
| Seminar (məşğələ) dərslərində aktivliyə görə | 20 | 20% |
| **Cəmi:** | **100** | **100 %** |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - "qeyri-kafi" – **F**
51-60 bal - "qənaətbəxş" – **E**
61-70 bal - "kafi" – **D**
71-80 bal - "yaxşı" – **C**
81-90 bal - "çox yaxşı" – **B**
91-100 bal - "əla" – **A**

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi "qeyri-kafi" qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.